# Azərbaycanın xarici siyasətinin uğurları

# Azərbaycan-İndoneziya əməkdaşlığı möhkəm və sarsılmazdır

**Dünyada elə ölkələr var ki, onlar əsasən malik olduqları özünəməxsus dəyərləri, füsunkar gözəllikləri ilə yadda qalır, seçilir, fərqlənirlər. Belə ölkələrdən biri çoxsaylı adalar (17000) və göllər (521) diyarı olan İndoneziyadır. Biz isə ona həm də dost ölkə deyirik. O, 270 milyonluq əhalisi ilə islam dünyasının və Cənub-Şərqi Asiyanın aparıcı dövlətidir. Keşməkeşli tarixə malik olan bu ölkə və onun zəhmətsevər xalqı müstəmləkə zəncirlərini çiyinlərindən qopara ataraq XX yüzilliyin ortalarında müstəqilliyə qovuşmuş və azad inkişaf yolunu seçmişdir.**

O vaxtdan etibarən hər il avqust ayında İndoneziya bunu izdihamlı şənliklərlə, vətən sevgisilə bayram edir. Ötən ilin oktyabrından prezident səlahiyyətlərinin icrasına başlayan yeni dövlət başçısı Prabovo Subianto sosial-iqtisadi sahədə bir sıra yeni təşəbbüslərlə çıxış etdi. Onun 28 milyard dollarlıq "Pulsuz Qidalı Yemək" təşəbbüsü maliyyə çətinlikləri yaratsa belə, milli rifaha doğru atılan cəsarətli addım oldu. O, dövlət başçısı kimi iqtisadi inkişafı, yoxsulluğa qarşı mübarizəni, xarici sərmayələrin cəlb edilməsini özünün başlıca vəzifələri adlandırıb. O, həm də sabiq prezident Coko Vidodonun başladığı, paytaxtın Yava adasında əhalinin sıx məskunlaşdığı Cakartadan Kalimantan adasında tikilməkdə olan Nusantaraya köçməsini başa çatdırmaq niyyətindədir.

Xarici siyasətdə o, "qurucu ataların irsini - bloklara qoşulmamaq fəlsəfəsini" qoruyub saxlamaq niyyətindədir. Prabovo Subianto bildirib ki, ölkə "bir bloka qarşı digər bloka qoşulmaq" istəmir. İndoneziyanın xarici siyasəti milli maraqların qorunması, beynəlxalq məsələlərdə iştirak, sülh və sabitliyin təşviq edilməsi vurğulanmaqla "fəal və müstəqil" kimi təsvir edilir. İndoneziya Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq qurumlarda fəal iştirak edir və əsas tərəfdaşlarla, o cümlədən ABŞ, Yaponiya, ASEAN ölkələri və Avropa İttifaqı ilə ikitərəfli əlaqələri gücləndirməyə çalışır. İndoneziyanın xarici siyasəti ölkənin dinc yanaşı yaşaması, qarşılıqlı hörməti və digər ölkələrin daxili işlərinə qarışmamasını vurğulayan "Pança şila" prinsiplərinə əsaslanır.

Eyni zamanda Cənub-Şərqi Asiyanın iqtisadi gücü, sütunu olan İndoneziya 2025-ci ilə sürətli inkişaf və gələcəyə böyük inamla daxil oldu. İndoneziyanın BRIKS alyansına üzvlüyü ticarətin artırılmasından tutmuş yeni valyuta imkanlarının yaradılmasına qədər maraqlı imkanlar açır. Həmçinin BRIKS ölkələri tərəfindən Yeni İnkişaf Bankının yaradılması əmtəə bazarına təsir edərək İndoneziyanın infrastruktur layihələrinin maliyyələşdirilməsində əsas rol oynayacaq.

İndoneziya G20 ölkələri arasında ən sürətlə inkişaf edən ikinci iqtisadiyyata malikdir. İndoneziya iqtisadiyyatı 2025-ci ilin birinci rübündə illik müqayisədə 4,87 faiz genişlənmişdir. Bu da G20 ölkələri arasında Çindən (5,4 faiz) sonra ikinci ən sürətli artımdır. Hesablamalara görə, İndoneziya iqtisadiyyatı cari ildə daha da möhkəmlənəcəkdir. Artıq bu sahədə inamlı artım müşahidə olunmaqdadır. Belə ki, 2025-ci ilin ikinci rübündə ümumi daxili məhsulun artımı gözləntiləri üstələyib. Onun miqdarı cari ilin ikinci rübündə illik müqayisədə 5,12 faiz artıb ki, bu da 2023-cü ilin ortalarından bəri ən yüksək göstərici deməkdir. O, əvvəlki rüblə müqayisədə 4,04 faiz artıb ki, bu da təxminən son 5 ilin ən sürətli rüblük artımıdır. Bu artım aktiv investisiyalar, ixracın çoxalması, habelə dövlət xərcləri, stimullaşdırıcı tədbirlər paketi və milli valyutanın möhkəmlənməsi hesabına baş verib. Ümumi daxili məhsulun 2025-ci ilin sonuna kimi 5 faizə çatacağı gözlənilir.

Ölkənin iqtisadi artımına əsas töhfəni beş əsas bölmə verir: emal-edici sənaye, ticarət, kənd təsərrüfatı, tikinti və dağ-mədən sənayesi. Ümumi daxili məhsulun strukturunda onların ümumi payı 63,96 faiz təşkil edir. Müsbət dinamikanı milli valyutanın möhkəmlənməsi də təsdiqləyir. Ölkənin qızıl ehtiyatları 109,9 tona yaxındır.

İndoneziya həmçinin dünyanın ən böyük nikel, kömür və təbii qaz ixracatçılarından biridir. Ölkədə elektronika cihazları, avtomobil istehsalı, ağac emalı, enerji hasilatı, gəmiqayırma, əczaçılıq inkişaf etmişdir. İstehsal sektorunda ən əhəmiyyətli sahələr bunlardır: yeyinti sənayesi (bütün qeyri-xammal istehsalının təxminən 19 faizi, demək olar ki, 6 min iri və orta müəssisə), kimya sənayesi (16 faiz, 900-ə yaxın müəssisə), toxuculuq sənayesi (7 faiz, 2000-ə yaxın müəssisə) və tütün sənayesi (7 faiz).





Ölkədə 2025-ci ilin iyun ayında 4,11 milyard dollar həcmində müsbət ticarət balansı qeydə alınıb. İndoneziya dünya bazarına xurma və kokos yağı, rezin, rezin məmulatları və onların törəmələri, düyü, qəhvə, şokolad və kakao, qalay və qalay məhsulları, toxuculuq malları, geyim və ayaqqabı, balıq, molyuska və xərçəngkimilər ixrac edir.

İndoneziyanın əsas xarici ticarət tərəfdaşları Çin, ABŞ, Yaponiya, Hindistan və Sinqapurdur. Bu ölkələr həm də İndoneziyanın ixracında və idxalında lider mövqelər tuturlar.

Ümumilikdə İndoneziya iqtisadiyyatı qlobal çağırışlara baxmayaraq, davamlılıq və müsbət dinamika nümayiş etdirərək gələcək üçün yaxşı perspektivlərə malikdir.

Azərbaycanın dövlət müstəqilliyi İndoneziya tərəfindən 28 dekabr 1991-ci ildə tanınmışdır. İki ölkə arasında diplomatik münasibətlər 24 sentyabr 1992-ci ildə qurulmuşdur. 2006-cı il fevralın 1-də Cakarta şəhərində Azərbaycan Respublikasının Səfirliyi təsis edilmiş və bu, ölkəmizin Cənub-Şərqi Asiya regionunda açılan ilk səfirliyi olmuşdur. İndoneziya Respublikası isə 2 dekabr 2010-cu ildə Bakı şəhərində öz səfirliyini açmışdır.

O dövrdən bəri hər iki ölkə bir sıra nüfuzlu beynəlxalq qurumların - BMT, İslam Əməkdaşlıq Təşkilatının və Qoşulmama Hərəkatının üzvü kimi fəal əməkdaşlıq edirlər. Demək olar ki, beynəlxalq və regional problemlərin həllinə münasibətdə onların mövqeləri həmişə üst-üstə düşür.

Azərbaycan dövlət müstəqilliyini bərpa edərək beynəlxalq münasibətlərin tamhüquqlu subyektinə çevriləndən sonra iki ölkə arasında siyasi-diplomatik münasibətlər normal məcrada yüksələn xətlə inkişaf etməyə başladı. Ötən dövr ərzində dövlətlərimiz arasında 20-dən çox müqavilə, saziş və protokolun imzalanması ikitərəfli münasibətlər üçün möhkəm hüquqi baza yaratdı.

Son zamanlar Azərbaycanla İndoneziya arasında siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələr xeyli genişlənmişdir. Bu sahədə parlamentlər arasındakı əlaqələri xüsusi vurğulamaq lazımdır. Hökumət qurumları arasında əlaqələr də müntəzəm xarakter almışdır. Bütün bunlar bir sıra beynəlxalq tədbirlərlə müşayiət olunur. Belə ki, 2025-ci ilin fevralında Bakıda "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr olunmuş Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası keçirilmişdir. Bu tədbir zamanı Prezident İlham Əliyev İndoneziya Respublikası Nümayəndələr Palatasının sədri Puan Maharani qəbul etmiş və tərəfləri maraqlandıran problemlər üzrə fikir mübadiləsi aparılmışdır.

2025-ci il mayın 11-15-də Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti Cakarta şəhərinə səfər çərçivəsində İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının 19-cu plenar iclasına qatılmışlar. Həmçinin iyunun 21-də İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının İstanbulda keçirilən 51-ci sessiyası çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İndoneziya Respublikasının xarici işlər naziri Suqiono arasında görüş keçirilmişdir. Tərəflər BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, D-8 və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsinin, qlobal çağırışlara qarşı mübarizədə birgə fəaliyyətin vacibliyini qeyd etmişlər.

İki ölkə arasında gediş-gəlişin sadələşdirilməsi sahəsində də addımlar atılmışdır. Azərbaycan və İndoneziya 2024-cü ilin noyabrında diplomatik, xüsusi və xidməti pasportlara malik olan şəxslərin vizadan qismən azad edilməsini nəzərdə tutan razılaşmalar əldə ediblər. Bu mühüm addımlar ölkələr arasında diplomatik və işgüzar münasibətlərin inkişafına yönəlib ki, bu da müxtəlif sahələrdə əməkdaşlıq üçün əlavə imkanlar yaradır. Bu tədbirlər Azərbaycanın regionda və onun hüdudlarından kənarda əsas tərəfdaşları ilə diplomatik və iqtisadi əlaqələrini yaxşılaşdırmaq səylərinin bir hissəsidir. Diplomatlar və dövlət qulluqçuları üçün viza tələblərinin sadələşdirilməsi rəsmi səfərləri asanlaşdırır, ölkələr arasında koordinasiyanı yaxşılaşdırır, ticarət, mədəniyyət və siyasət sahələrində daha sıx əməkdaşlığa şərait yaradır.

Siyasi münasibətlərin normal olması həyatın digər sahələrində, xüsusilə ticarət-iqtisadi sahədə qarşılıqlı əlaqələrin inkişafına da müsbət təsir göstərir. 2024-cü ildə Azərbaycandan hüquqi və fiziki şəxslər tərəfindən 120 ölkəyə məhsul ixrac olunmuş, 167 ölkədən isə idxal edilmişdir. Məsafə baxımından uzaqda yerləşməsinə baxmayaraq, dost İndoneziya Respublikası bu sahədə özünəməxsus yer tutmuşdur. Azərbaycan İndoneziyadan xam palma yağı və onun fraksiyaları, kokos yağı və onun fraksiyaları, taxta-şalban, çoxqatlı panellər, toxuculuq materialları idxal edir. Eyni zamanda Azərbaycandan İndoneziyaya xam neft və bitumlu minerallardan alınan xam neft məhsulları ixrac olunur.

İndoneziya ilə Azərbaycan arasında humanitar əlaqələr mədəniyyət, təhsil, elm, səhiyyə və digər sosial sahələrdə əməkdaşlığı əhatə edir. İslam Əməkdaşlıq Təşkilatının və Qoşulmama Hərəkatının üzvü olan hər iki ölkə müxtəlif humanitar məsələlərdə qarşılıqlı fəaliyyət və təcrübə mübadiləsi üçün platformaya malikdir.

Təhsil sahəsində əlaqələr getdikcə genişlənir. Tələbə və müəllim mübadiləsi, elmi tədqiqatlarda əməkdaşlıq, birgə təhsil proqramlarının həyata keçirilməsi bu sahədə mühüm tədbirlərdir. ADU-da İndoneziya dili tədris olunur və bu sahədə ixtisaslı kadrlar hazırlanır. BDU-nun Asiya və Afrika ölkələri tarixi kafedrasının əməkdaşları Tarix fakültəsində İndoneziya tarixini də tədris edirlər.

İki ölkə arasında mədəni sahədə əlaqələr sabit və yüksələn xətlə inkişaf edir. Belə ki, qarşılıqlı surətdə mədəni tədbirlərin, incəsənət festivallarının, sərgilərin, dostluq gecələrinin təşkili, yaradıcı qrupların mübadiləsi, mədəni irsin qorunması və təbliği sahəsində təşəbbüslər də hər iki xalqın bir-birilə yaxınlaşmasına böyük töhfə verir.

Tibb sahəsində təcrübə mübadiləsi, xəstəliklərlə mübarizə üzrə birgə layihələr, tibb təhsili və elmi sahəsində əməkdaşlıq da iki ölkə arasında durmadan inkişaf edir. Müsəlman icmaları arasında qarşılıqlı əlaqə, dini sahədə təcrübə mübadiləsi, dini dəyərlərin qorunması sahəsində də əlaqələr normal məcrada inkişaf edir. Təsadüfi deyil ki, İndoneziya və Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının himayəsi altında keçirilən tədbirlərdə fəal iştirak edirlər. Bu da iki ölkə arasında humanitar əlaqələrin möhkəmlənməsinə kömək edir. Azərbaycanda İndoneziya mədəniyyətini təbliğ edən müxtəlif mədəniyyət mərkəzləri fəaliyyət göstərir.

Möhkəm əminliklə vurğulamaq olar ki, məhsuldar əməkdaşlıq üçün hər iki ölkənin potensialı daha çoxdur. Onlardan səmərəli və məqsədyönlü istifadə hər iki dövlətin və xalqın rifah halının yüksəldilməsilə yanaşı, Cənubi Qafqazda və Cənub-Şərqi Asiyada sabitliyin və iqtisadi tərəqqinin təməllərinin möhkəmlənməsinə münbit zəmin yaradır.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***